# Səbail məktəblilərinin hərbi-vətənpərvərlik sərgisi

*Mayın 10-da paytaxtın "Sahil bağı"da Səbail Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 93 ildönümü gününə həsr olunmuş hərbi-vətənpərvərlik mövzusunda rəsm müsabiqə- sərgisi keçirildi.*



Bayramsayağı bəzədilmiş "Sahil bağı"nda son günlərdə abadlıq- dekorasiya isləri aparılmış, ərazinin siması bir az da gözəlləşmişdir. Burada keçiriləcək sərgi- müsabiqəyə hazırlıq çərçivəsində istedadlı gənclər əvvəlki günlərdə fantaziyalarına uyğun olaraq bağda müxtəlif gül- çiçək kolları əkmiş, dibçəklərdən rəngarəng kompozisiyalar düzəltmişlər. İnsanları heyran qoyan bu böyük və yaraşıqlı səhnənin təbii dekorasiya elementləri ulu öndər Heydər Əliyevə ümumxalq məhəbbətini güllərin, çiçəklərin dili ifadə edirdi.

Bu ətirsaçan gözəlliyin qoynunda təşkil olunmuş canlı rəsm müsabiqəsinin orijinal və cəlbedici mənzərəsi minlərlə insanı ayaq saxlamağa, Səbail məktəblilərinin Vətənə məhəbbətdən qaynaqlanan təsviri yaradıcılığını seyr etməyə həvəsləndirirdi.

Rayonun orta məktəblərində, həmçinin Bakı Oksford məktəbində oxuyan və 20 saylı Uşaq Yaradıcılıq Mərkəzində məşğul olan 100-dən çox məktəbli ümummilli liderin zəngin mənəvi irsinin yeni nəsillərə aşıladığı yüksək vətənpərvərliklə bağlı bilgi və təsəvvürləri rənglərin, cizgilərin dili ilə şövqlə təsvir edirdilər. Onlar peşəkarlara məxsus çevikliklə Qarabağ müharibəsinin səhnələrini, xüsusilə, son günlərdə xalqımıza qələbə müjdəsi yetirmiş Milli Ordumuzun hünərini əks etdirən müxtəlif rəsmlər çəkirdilər. Gənc rəssamlar, eləcə də müəllimlər məktəblilərin rəsm yarışmasına öz məsləhətləri ilə xeyirxah yön verirdilər. Məktəblilər əl işlərini başa çatdırandan sonra çəkdikləri təsvirləri bağda təşkil olunan səyyar sərgidə nümayiş etdirdilər.

Bayram şənliyinin çoxsaylı iştirakçıları arasında olan Səbail Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev, Azərbaycan Rəssamlar İttifaqının katibi Ağəli İbrahimov, sənətşünas Ziyadxan Əliyev və digər nüfuzlu qonaqlar bağda yaradılmış gül tərtibatları ilə diqqətlə tanış oldular. Qonaqlar məktəblilərin yurd sevgisini və əsgərlərimizin onu yağıdan qorumaq qeyrətini ifadə edən müsabiqə – sərgiyə maraqla tamaşa etdilər, gənc rəssamların öz əsərləri barədə izahlarını məmnunluqla dinlədilər.

Azərbaycan Rəssamlar İttifaqının, Uşaq Yaradıcılıq Mərkəzinin və rayon rəhbərliyinin iştirakı ilə yaradılmış münsiflər heyəti məktəblilərin rəsmlərini qiymətləndirdilər. Sonda qaliblər Səbail RİH-nin fəxri fərmanları və hədiyyələri, digər gənc rəssamlar Səbail RİH və Rəssamlar İttifaqının diplomları ilə mükafatlandırıldılar.

**R. TAHİR, "Xalq qəzeti"**